№12

Ədəbiyyat Qəzeti

32 11 aprel 2025-ci il



# Famil MƏMMƏDOV

Amansız ölüm qələm yoldaşımız Famil Məmmədovu aramızdan apardı.

Famil Əfsər oğlu Məmmədov 1952-ci il sentyabrın 30-da Cəbrayıl şəhərində anadan olub. Orta məktəbi burada bitirib. 1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizika fakültəsindən məzun olub. Həmin il Cəbrayılda müəllim kimi əmək fəaliyyətinə başlayıb. Bir müddət Cəbrayıl Rayon Komsomol Komitəsində çalışdıqdan sonra Minsk Ali Hərbi Məktəbində təhsil alıb. Təhlükəsizlik orqanlarında xidmət edib.

Bədii yaradıcılıqla gənc yaşlarından məşğul olub. Qələmini nəsr sahəsində sınayıb. "30 sentyabr", "Uçurulmuş körpü", "Şəhərcik", "Məhv olmuş taleyin qiyməti", "Mübarizənin şirinliyi" və s. roman və povestlərində doğma yurdu Cəbrayıldan bəhs edir, beynəlxalq aləmdə baş verən siyasi hadisələrə toxunur. Rəngarəng mövzu, canlı dil, maraqlı süjet, aktuallıq əsərlərinin əsas ideya-bədii xüsusiyyətlərindəndir.

İstedadlı yazıçı, səmimi, təvazökar insan Famil Məmmədovun işıqlı xatirəsi qələm yoldaşlarının qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**